# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**çıxarış**

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bir sıra qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 aprel tarixli 91 nömrəli Qərarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

2. "Naxçıvan Muxtar Respublikasında sığortaolunanların ilkin səhiyyə xidməti üzrə dövlət tibb müəssisəsinə təhkimolunma Qaydası"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 14 aprel tarixli 69 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

2.1. adında və 1-ci hissədə "səhiyyə xidməti" sözləri "tibbi-sanitariya yardımı" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında sığortaolunanların ilkin səhiyyə xidməti üzrə dövlət tibb müəssisəsinə təhkimolunma Qaydası" üzrə:

2.2.1. adında, 1.1-ci bənddə və 2.1.2-ci yarımbənddə "səhiyyə xidməti" sözləri "tibbi-sanitariya yardımı" sözləri ilə əvəz edilsin;

2.2.2. 2.1.4-cü yarımbənddə "səhiyyə xidmətləri" sözləri "tibbi-sanitariya yardımı" sözləri ilə əvəz edilsin.

3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 14 aprel tarixli 73 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tibbi xidmətlərin göstərilməsi haqqında Müqavilə"nin Nümunəvi forması"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.2-ci bənddə hər iki halda "səhiyyə xidməti" sözləri "tibbi-sanitariya yardımı" sözləri ilə əvəz edilsin;

3.2. 4.7-ci bənddə "səhiyyə xidmətləri" sözləri "tibbi-sanitariya yardımı" sözləri ilə əvəz edilsin.

4. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 oktyabr tarixli 184 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığorta üzrə sığorta haqqının hesablanmasına və ödənilməsinə nəzarət Qaydası"nın 3.2-ci bəndində "səhiyyə xidməti" sözləri "tibbi-sanitariya yardımı" sözləri ilə əvəz edilsin.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, 21 aprel 2021-ci il

№ 104